# *PEDAQOGİKA*

## Müasir qiymətləndirmənin mahiyyəti

**Muraz Məsim oğlu Həsənov**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
**E-mail:** həsənovmuraz42@gmail.com

**Rəyçilər:** t.ü.e.d., dos. S.M. Seyidova
p.ü.f.d. dos. D.M. Musayev

**Açar sözlər:** özünüqiymətləndirmə, standartlar, demokratiklik, obyektivlik, şagird naliyyətləri, nəticələrin təhlili
**Ключевые слова:** самооценивание, стандарты, демократия, объективность, достижения учащихся, анализ результатов
**Key words:** self evaluating, standards, democratism, objectiveness, student motivation, results analysis

Hazırki dövrdə təhsilin keyfiyyətinin idarə olunması, inkişaf dinamikasının hazırlanması və proqramlaşdırılması üçün real vəziyyətin öyrənilməsi və təhlili vacibdir. Bu işdə qiymətləndirmə əsas vasitədir. Qiymətləndirmə təlim tərbiyə prosesini təkmilləşdirməyə, təlim prosesinin səmərəliliyini yüksəltməyə, təhsilalanlarda (şagirdlərdə, tələbələrdə və s.) hansı keyfiyyət dəyişikliklərinin formalaşdığını müəyyənləşdirməyə əsas şərait yaradır. Məktəblilərin təlim nailiyyətlərinin izlənilməsi çox geniş və əhatəli prosesdir. Qiymətləndirmə həm təlim, həm də tərbiyəvi əhəmiyyət daşıyır. Təlim baxımından bilik, bacarıq və vərdişlərin səviyyəsinə qiymətin verilməsində özünü göstərirsə, tərbiyəvi cəhətdən məktəblilərin fəallığına, çalışqanlığına intizamlı olmasına görə pedaqoji ədəbiyyatda özünü göstərir. Qiymətləndirmə şagirdlərin mənimsəmə səviyyəsinin tədris proqramında əks olunmuş meyarlarla müqayisə prosesi kimi başa düşülür (1, s. 298). Buna görə də təhsil keyfiyyətinin müəyyənləşdirilməsi üçün tətbiq olunan qiymətləndirmə konsepsiyasının hazırlanması bu məqsədləri reallaşdırmaq istiqamətində aşağıdakı fəaliyyətlərin həyata keçirilməsinə xidmət edir.

● qiymətləndirməyə və imtahan sistemlərinə yenidən baxmaqla, kurikulumlarda mütərəqqi dəyişikliklərin zəruriliyinin əsaslandırılması, sınaqdan çıxmış mexanizmlər vasitəsilə cəmiyyətdə müasir baxışların, mədəni dəyərlərin, yeni hüquq və vəzifələrin formalaşdırılması;

● yüksək rəqabət və bazar münasibətləri şəraitində milli mütəxəssislərin yetişdirilməsi üçün kurikuluma yeni fənlərin və peşələrin daxil edilməsi, tədris proqramlarında əsas diqqətin praktik vərdişlərin aşılanmasına və problemlərin həllinə yönəldilməsi, bütün şagirdlər tərəfindən minimum standartların mənimsənilməsi;

● təhsil sisteminin səmərəli fəaliyyətini təmin edən məktəbdaxili qiymətləndirmə sisteminin yaradılması məqsədi ilə müasir məzmun standartlarına cavab verən yüksək keyfiyyətli qiymətləndirmə vasitələrinin hazırlanması, təhsil pillələri üzrə buraxılış imtahanları üçün müvafiq prosedurların daha ədalətli və şəffaf tətbiq edilməsi və bu məsələlərin tənzimlənməsi üçün normativ hüquqi bazanın yaradılması;

● təhsilin keyfiyyətinin idarə edilməsi, onun təşkilinin səmərəliliyinin artırılması və təsir dairəsinin genişləndirilməsi istiqamətində hökumətə və digər strukturlara kömək edən milli

qiymətləndirmə sisteminin yaradılması, beynəlxalq qiymətləndirmə və müqayisəedilmə tədqiqatlarında ölkənin iştirakının təmin edilməsi (2, s. 4)

Hər bir qiymətləndirmə şagirdin obyektiv qazandığı biliklərini (keyfiyyət göstəricilərini) nəzərdə tutur. Təlimin keyfiyyəti, təhsil müəssisənin səmərəli fəaliyyəti, bir çox didaktik və tərbiyəvi vəzifələrin həlli bu məlumatların obyektivliyindən çox asılıdır. Pedaqoji təcrübədə biliklərin və təlim prosesinin qiymətləndirilməsi, əsasən subyektiv xarakter daşıdığından, yeni yanaşma və üsullarla təlim prosesini qiymətləndirilməsinin aktuallığını ön plana çəkir, biliklərin və fəaliyyətin qiymətləndirilməsi prosesində yeni qiymətləndirmə mexanizmlərinin yaradılmasının əhəmiyyətini artırır. Azərbaycan Respublikası Nazirlər kabinetinin 13 yanvar 2009-cu il tarixli 9№-li qərarı ilə "Azərbaycan Respublikasının ümumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyası" çərçivə sənədi təsdiq olunmuşdur. Sənəddə müasir dövrdə şagird nailiyyətlərinin qiymətləndirilməsi sahəsində mövcud olan problemlər, şagird nailiyyətlərinin qiymətləndirmə növləri, qiymətləndirmə standartlarının və qiymətləndirmə vasitələrinin hazırlanması və sair məsələlər nəzərdə tutulmuşdur. Bu baxımdan hər bir müəllimin qarşısında çətin və olduqca məsuliyyətli iş dayanır. Bu işin uğurla başa çatması, gənc nəslin düzgün yetişdirilməsi məhz onlardan asılıdır. Müəllim öz fəaliyyətini günün tələbinə uyğun qurmağa, fəal təlim metodlarından geniş istifadə etməyə çalışmalıdır. Perspektiv və gündəlik planlaşdırma zamanı müəllim üçün zəruri hesab edilən bacarıqlardan biri nailiyyətlərin qiymətləndirilməsinin növlərini müəyyənləşdirməkdir. Çünki qiymətləndirmənin mahiyyətini dərk etmədən müasir və ənənəvi qiymətləndirmənin bir-birindən fərqləndirmədən, əsas qiymətləndirmə növlərinin (diaqnostik, formativ, summativ) tətbiqi metodikasına yiyələnmədən, uyğun qiymətləndirmə vasitələri hazırlamadan təhsildə şagirdin inkişafyönlü istiqamətdə biliklərə yiyələnməsində nailiyyətlər əldə etmək olmaz. Məzmun standartlarının hansı səviyyə də reallaşdığını yoxlamaq məqsədi ilə hər tədris vahidindən sonra kiçik qiymətləndirmədən istifadə etməlidir. Bu zaman müəllim hər bir şagirdin həmin tədris vahidini necə mənimsədiyini, hansı sahədə çətinlik çəkdiyini müəyyənləşdirir, daha istedadlı şagirdlərin üzə çıxarılmasına çalışmalıdır. Obyektiv və demokratiklik prinsiplərini əsas tutaraq qiymətləndirmə zamanı məktəb rəhbərliyi ilə birgə valideynlərin də iştirakını təmin etməlidirlər. Onlarla birlikdə nəticələri müzakirə edib, hər bir şagird üçün hesabat tərtib edib, şagirdlərin illik inkişaf istiqamətinin düzgün dəyərləndirməyə imkan verməliyik. Qiymətləndirmənin əsas növləri bunlardır:

1. Diaqnostik qiymətləndirmə - Şagirdlər əsas bilik və bacarıqlara müəyyən dərəcədə malikdirlərmi? - Şagirdlər tədris edilmiş materialın hansı hissəsini bilirlər?

2. Formativ qiymətləndirmə - Standartların mənimsənilməsinə doğru şagirdlər kifayət qədər irəliyə bilirlərmi?

3. Summativ qiymətləndirmə. - Şagirdlər verilmiş standart və ya standartlar qrupunda müəyyən edilmiş məqsədlərə nail olublarmı? (2, s. 8).

Qiymətləndirmənin bu növləri şagirdlərin hər bir fənnin məzmun standartlarında göstərilən əsas bilik və bacarıqların əldə edilməsinə yönəlmiş fəaliyyət istiqamətləri ilə təmin edirlər, ilkin səviyyənin qiymətləndirilməsi (diaqnostik qiymətləndirmə) şagirdin biliyini müəyyən edir və təlimin düzgün qurulmasında müəllimə köməklik göstərir.

Qiymətləndirmənin əsas problemlərindən biri obyektiv qiymətin təmin edilməsinin çətinliyidir. Obyektiv qiymətləndirməni müəllim tənzimləməlidir. Obyektiv qiymət verilməsinə mane olan amillər aşağıdakılardır:

- kəmiyyət xarakterli qiymətlərin verilməsi üçün dəqiq olmayan (şərti) normativlərin mövcudluğu;
- qiymətləndirmənin kəmiyyət meyarlarının şagirdlə daha obyektiv əks-əlaqə yaratmağa

imkan verən, daha diferensiallaşdırılmış və daha dəqiq sistemin işlənib hazırlanmaması. Belə bir sistemin olması şagirdin nailiyyətlərini dəqiq və müvafiq surətdə səciyyələndirməyə imkan verər və şagirdin irəliyə doğru hərəkətini təmin edə biləcək lazımi tapşırıqları müəyyən etməyə şərait yarada bilər;

● şagirddə (bir çox hallarda müəllimdə) təlim prosesinin hansı məqsədləri və ya nəticələri (bilik, bacarıq və vərdişlər kompleksi şəklində) olması barədə təsəvvürlərinin zəifliyi.

Obyektivliyin təmin edilməsi yollarından biri qiymətləndirmə prosesində şəffaflıq, aşkarlıq prinsipinin aşağıdakı kimi gözlənilməsidir:

● şagirdlərin müəllimin istifadə etdiyi qiymətləndirmə meyarları ilə tanışlığı:

● qiymətləndirmə prosesinin aşkarlığı: bu zaman müəllim qiymət verərkən onu əsaslandırır.

Qarşılıqlı qiymətləndirmə və özünüqiymətləndirmə prosedurlarından istifadə edilməsi (3, s. 35-36).

Müəllim diaqnostik qiymətləndirməni aparmazdan əvvəl aşağıdakı təlimatı nəzərə almalıdır.

● diaqnostik qiymətləndirmə müəllim üçün təlim strategiyasını müəyyənləşdirməyə xidmət edir. Bir qayda olaraq, təhsil səviyyəsinin, dərs ilinin, tədris vahidlərinin əvvəlində sinifdəki şagirdlərin bilik və bacarıqları, eyni zamanda şagird bir ümumi təhsil müəssisəsindən digərinə gəldikdə, sinfi dəyişdikdə və digər zəruri hallarda onun bilik və bacarıqları haqqında məlumat toplamaq, şagirdə fərdi yanaşmanı təmin etmək məqsədilə aparılır.

● diaqnostik qiymətləndirmənin üsul və vasitələri fənn müəllimi tərəfindən müəyyənləşdirilir və aparılır.

● diaqnostik qiymətləndirmə vasitələri bir qayda olaraq, standartlar üzrə əldə olunmuş bilik və bacarıqlar əsasında hazırlanır (ibtidai təhsil səviyyəsinin birinci sinfində dərs ilinin əvvəli istisna edilməklə).

● diaqnostik qiymətləndirmə məqsədinə uyğun olaraq iki formada keçirilir: davamlı və qısamüddətli.

● davamlı diaqnostik qiymətləndirmə, adətən, təhsil səviyyəsinin və dərs ilinin əvvəlində bir neçə dərsin müəyyən hissəsində aparılır.

● davamlı diaqnostik qiymətləndirmədə müəllim şagirdin bilik və bacarıqlarının daxil olduğu inkişaf sahələrini (idraki, fiziki, sosial-emosional, hərəki) öyrəndiyinə görə daha çox müşahidə üsulundan və bu üsulu reallaşdıran vasitədən – müşahidə cədvəlindən istifadə edir. Şagird haqqında daha ətraflı məlumat toplamaq üçün valideynlərlə və digər fənn müəllimləri ilə əməkdaşlıq üsulundan və sorğu vasitələrindən istifadə edilir.

● qısamüddətli diaqnostik qiymətləndirmə, adətən, tədris vahidlərinin əvvəlində bir dərsin müəyyən hissəsində aparılır.

● qısamüddətli diaqnostik qiymətləndirmədə müəllim şagirdin hər hansı bir bəhs və bölmə üzrə bilik və bacarıqlarını yoxladığına görə tapşırıqvermə, müsahibə, layihə kimi qiymətləndirmə üsullarından və müvafiq olaraq çalışma, şifahi sual-cavab, təqdimat vasitələrindən istifadə edir.

● diaqnostik qiymətləndirmənin nəticələri rəsmi sənədlərdə qeyd olunmur, yazılı qeydlər sinif və şagird portfoliosunda saxlanılır (4, s. 3).

Tarix dərslərində diaqnostik qiymətləndirmənin aparılması üçün həyata keçirilən üsullardan biri də tapşırıq vermədir. Bu zaman şagirdlərə mövzu ilə bağlı müxtəlif tapşırıqlar verilə bilərlər.

Qiymətləndirmə ilk növbədə uşaqlarda müsbət emosiyalar yaratmalıdır. Qiymətləndirmə-

də müəllim ən çox şagirdin səhvlərini deyil, nailiyyətlərini vurğulamalı, cəzadan çox dəstək verməyə arxalanmalıdır (5, s. 603). Qiymət, ilk növbədə, şagird üçün özünüqiymətləndirmə və özünə nəzarət vasitəsi kimi çıxış etməlidir. Özünüqiymətləndirmə vərdişlərini yaratmaq üçün bütün sinif və müəllimin iştirak ilə qiymətin şagirdin özü tərəfindən verilməsini və eləcədə şagirdlərin bir-birinin işinə qiymət verməsini tətbiq etmək lazımdır. Beləliklə aparılmış araşdırmalar nəticəsində belə qənaətə gəlinmişdir ki, qiymətləndirməni pedaqoji işçilər, müstəqil ekspertlər və təhsilin keyfiyyətini tənzimləmək üçün təşkilatlar qiymətləndirmənin təlim prosesində rolu milli təhsilin keyfiyyətini müəyyən etmək üçün həyata keçirirlər.

Nəticə olaraq deyə bilərik ki, müasir qiymətləndirmənin əhəmiyyəti şagirdlərin inkişafının formalaşmasında böyük rol oynayır. Çünki qiymətləndirmə pedaqoji prosesi tənzimləməyə, keyfiyyətini yüksəltməyə, həm də mövcud çatışmazlıqlar barədə təhsili idarə edənlərin və valideynlərin məlumatlandırılmasına xidmət edən yeganə pedaqoji vasitə olduğundan, qiymətləndirmənin düzgün təşkili və qiymətləndirmə aparılarkən məqsədin aydın olması təhsilin keyfiyyətinin yüksəldilməsində mühüm rol oynayır. Ona görə də ümumtəhsil məktəblərində elmi, pedaqoji və psixoloji cəhətdən əsaslandırılmış qiymətləndirmənin aparılması təhsil prosesinin keyfiyyətinin yüksəldilməsində atılan ən mühüm addımlardan biridir

**Məqalənin aktuallığı.** Qiymətləndirmə biliyə, demokratiyaya və obyektivliyə əsaslanmalıdır. Qiymətləndirmənin şagirdləri bir-birindən fərqləndirmək üçün deyil, onların mənimsəmə səviyyəsini, problemlərini üzə çıxarmaq üçün ölçü vasitəsi olmasının təhlili baxımından məqaləni aktual hesab etmək olar.

**Məqalənin elmi yeniliyi.** Qiymətləndirmənin səciyyəvi cəhətləri müəyyənləşdirilərək onun mahiyyətinə aydınlıq gətirilmişdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədə irəli sürülən fikirlər və əldə olunan nəticələr tarixin tədrisi metodikası elminin nəzəri məsələlərini zənginləşdirməklə yanaşı, eyni zamanda tədqiqat nəticəsində əldə olunan nəticələr müəllimlərin gündəlik qiymətləndirməsində faydalı ola bilər.

## Ədəbiyyat

1. Qasımova L., Mahmudova R. Pedaqogika. Dərslik. Bakı, Çaşıoğlu, 2012, 548 s.
2. Azərbaycan Respublikasının ümumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyası. Bakı, 13 yanvar 2009, № 9, 18 s.
3. Veysova Z. Fəal (interaktiv) təlim: Müəllimlər üçün vəsait Bakı: UNICEF, 2007, 156, s.
4. Azərbaycan Respublikası Təhsil Nazirliyi. Ümumtəhsil Məktəblərində Məktəbdaxili Qiymətləndirmənin Aparılması barədə Təlimat. Bakı, 2012, 11 s.
5. Əmirov M. Tam orta məktəbdə tarixin fəal/interaktiv təlimi metodikası (Ali məktəblərin tarix fakültəsi tələbələri üçün dərs vəsaiti) Bakı, 2011, 707 s.

**М.М. Гасанов**

## Суть современной оценки

## Резюме

В статье дается общая информация о проведении оценивания. Даны рекомендации по правильному построению методов оценивания в процессе урока. Оценка должна ос-

новываться на знаниях, демократичности и объективности. В статье проанализировано, что оценивание является не средством различения учащихся друг от друга, а для выявления уровня усвоения и проблем.

**M.M. Hasanov**

## The essence of modern assessment

## Summary

The article provides general information on the assessment. Recommendations were given on the correct design of assessment methods during the teaching process. Evaluation should be based on knowledge, democracy and objectivity. Assessment in education is not a means of distinguishing students from each other, but a means of measuring their level of mastery and problems.

**Redaksiyaya daxil olub:** 19.04.2022